**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
-------------------------------------------------------
**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
========================================================

*Əlyazması hüququnda*

**MİRZƏYEV ANAR FAİQ OĞLU**

# AZƏRBAYCANDA TURİZM POTENSİALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

**5312.01 - Sahə iqtisadiyyatı**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə – 2016**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin “İqtisadiyyat” kafedrasında yerinə yetirilib.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Rasim Tapdıq oğlu Həsənov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Murad Ramiz oğlu Tağıyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Anar Əli oğlu Əzizov**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu**

Müdafiə 10 dekabr 2016-cı il saat $10^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi 64, 2-ci mərtəbə.

Dissertasiya ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxana-sında tanış olmaq olar.

Avtoreferat 9 noyabr 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **A.A.Həsənov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Qloballaşma proseslərinin və beynəlxalq rəqabətin sürətlə dərinləşdiyi hazırki dövrdə mövcud potensialdan istifadənin səmərəliliyi ölkənin inkişaf prioritetlərini təşkil edir. Azərbaycanda rəqabətqabiliyyətli və davamlı inkişaf potensialına malik iqtisadiyyatın formalaşmasında qeyri-neft sektorunun, xüsusilədə turizm sferasının sürətli və çoxşaxəli inkişafı mühüm rol oynayır. Turizm sektorunun ölkə iqtisadiyyatına multiplikativ təsiri əhalinin məşğulluğu, həyat səviyyəsi, tədiyyə balansı kimi makroiqtisadi göstəricilərlə yanaşı, bu sektorla birbaşa əlaqəsi olan sahələrin: xidmət, kənd təsərrüfatı, nəqliyyat və rabitənin inkişafına müsbət təsir edir. Eyni zamanda, turizmin inkişafı mədəniyyət, idman, səhiyyə və digər sosial sahələrin gəlirlərinin artırılmasına da geniş imkanlar yaradır. Bu baxımdan, turizm özünün inkişaf səviyyəsindən asılı olaraq istənilən dövlətdə sosial-iqtisadi, qanunvericilik, təhlükəsizlik və sair sahələrdə dövlət siyasətinin indikatoruna çevrilmişdir.

Son illərdə dünyada mütəmadi baş verən maliyyə böhranları dövründə belə, turizm sektorunda davamlı inkişaf müşahidə edilir və sahənin dünya üzrə orta illik artım tempi 4-6% təşkil edir. Ümumdünya Turizm Təşkilatının 2015-ci ilin statistik göstəricilərinə görə ümumi daxili məhsulun 10%-i, dünya istehlak xərclərinin 11%-i, hər 11 iş yerindən biri, investisiyaların 12%-i, dünya ixracatının 7%-i (1,5 trln. ABŞ dolları), vergi daxilolmalarının 10,7%-i turizm sektorunun payına düşür.

Turizm bazarında rəqabətə davamlılığın təmin olunması məqsədi ilə ölkəmizdə turizmin müxtəlif növlərinin uzun müddətli və dinamik inkişafı üçün əlverişli şərait yaradılmışdır. Azərbaycanın əlverişli coğrafi-strateji mövqeyi, münbit sosial-iqtisadi şəraiti, zəngin təbii ehtiyatları, Avropa və Asiya arasında iqtisadi əlaqələri təmin edən qədim İpək Yolunun üzərində yerləşməsi, on bir iqlim tipindən səkkizinin ölkədə mövcudluğu və sair göstəricilər turizmin inkişafı üçün uzun müddətli perspektivlər vəd edir. Turizm sektorunun inkişaf etdirilməsi ölkəmizin xarici aləmdə tanıdılması ilə yanaşı, daxili iqtisadi siyasətin prioritet istiqaməti olan regionların sosial-iqtisadi inkişafı baxımından da xüsusi aktuallıq kəsb edir. Bu məqsədlə 1999-cu ildə ölkəmizdə turizm bazarının hüquqi əsaslarının təmin edilməsi üçün Azərbaycan Respublikası "Turizm haqqında" qanunu qəbul edilmiş, həmçinin turizmin inkişafını və turizm ehtiyatlarından səmərəli istifadəni təmin etmək məqsədilə müxtəlif dövrləri əhatə edən iki Dövlət Proqramı təsdiq olunmuşdur. Bu isə ölkədə müasir turizm sahələrinin formalaşdırılmasını və turizmin iqtisadiyyatın əsas inkişaf dayaqlarından birinə çevrilməsini təmin edən məqsədin reallaşdırılması üçün atılmış müsbət bir addım olmuşdur. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 08 avqust 2015-ci ildə "Qalaaltı Hotel & SPA" müalicə-istirahət kompleksinin açılışı ilə bağlı keçirilən tədbirdə çıxış edərkən ölkəmizin turizm potensialının tükənməz olduğunu vurğulamış və gələcəkdə iqtisadiyyatı-

mızda onun çəkisinin daha da artması istiqamətində görülən işlərə toxunmuşdur. Dövlət başçısı regionların inkişafında turizm potensialından istifadəni ön plana çəkərək demişdir: “Hər bir ölkə, xüsusilə Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir. Çünki bu, daimi gəlir mənbəyidir. Təbii sərvətlər, neft, qaz - bunlar tükənən sərvətlərdir. Ancaq ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur. Biz bəzi ölkələrin gəlirlərinə fikir versək görərik ki, ən çox gəlir gətirən sahə turizmdir...”

Azərbaycanın mövcud ərazi rekreasiya potensialının araşdırılaraq dünyaya bir turizm ölkəsi kimi tanıdılması, turizm potensialından səmərəli istifadənin təmin olunması, investisiyalardan istifadənin səmərəliliyinin yüksəldilməsi yollarının öyrənilməsi, elmi cəhətdən əsaslandırılmış müvafiq təklif və tövsiyələrin işlənib hazırlanması olduqca mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar tədqiqat mövzusunun seçilməsini əsaslandıraraq, onun aktuallığını şərtləndirir.

**Problemin öyrənilmə səviyyəsi.** Dünya ölkələrinin iqtisadi inkişaf strategiyalarında turizm sektoruna xüsusi önəm verilir. Bununla əlaqədar olaraq xarici tədqiqatçıların elmi əsərlərində turizm bir iqtisadi kateqoriya kimi tədqiq edilir. Ölkəmizdə turizm sektoru üzrə aparılan tədqiqatlara nəzər yetirdikdə böyük əksəriyyətinin coğrafi aspektdən araşdırıldığı müəyyən olunur. Bu baxımdan, təklif etdiyimiz dissertasiya işi turizmin iqtisadi səmərəliliyi və ölkənin iqtisadi inkişaf strategiyasında onun roluna həsr edilmiş tədqiqat sayıla biər. Son dövrlərdə yerli və xarici ölkə alimlərinin əsərlərində müxtəlif aspektlərdə davamlı inkişafın təmin olunmasında turizmin rolu və turizm potensialından istifadənin səmərəliliyinin artırılması istiqamətində araşdırmalara rast gəlmək mümkündür. Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, Y.H.Həsənli, A.H.Salmanov, Ə.Q.Əlirzayev, R.T.Həsənov, R.M.Qasımov, E.İ.Aslanov, M.R.Tağıyev, E.Q.Məmmədov, F.Q.Abbasova, B.V.Qılıncov, N.R.Əliyeva, H.B.Soltanova, R.S.Səfərov, S.H.Abbasova, V.S.Dərgahov, R.M.Cəbiyev, B.Ə.Bilalov, A.Ə.Əzizov, A.N.Həsənov, xarici ölkə alimlərindən M.V.Stepanova, V.S.Senin, A.V.Denisenko, V.S.Boqolyubov, L.V.Vasilyeva, V.Y.Voloşina, M.M. Amirxanov, S.A.Bıstrov, N.İ.Panov, V.Q.Prudskoy, N.B.Şenikova, M.B.Birjakov, Y.F.Avdokuşin, A.S.Bulatov, A.Y.Aleksandrova, E.İ.Boqdanov, Y.Vavilova, A.P.Duroviç, O.İ.Kostikova, İ.İ.Kabuşkin, Q.Karpova, V.Q.Qulyayev, M.A.Jukova, Y.A.Cancuqzovaöz əsərlərində turizmin inkişafı, turizm potensialından istifadənin səmərəlilik istiqamətləri, müxtəlif turizm növlərinə aid xidmətlərin təkmilləşdirilməsi, regional inkişafda turizmin rolunun artırılması, investisiya cəlbediciliyinin yüksəldilməsi və sair istiqamətlərə dair nəzəri-metodoloji və praktiki məsələlərin tədqiqinə geniş yer vermişlər.

Azərbaycan Respublikasında zəngin turizm potensialının mövcudluğu, turizmin müxtəlif növlərinin inkişafı üçün əlverişli şəraitin olması və ölkəmizdə turizm sektoruna investisiya qoyuluşlarının sürətli artımı fonunda, turizm po-

tensialından istifadənin səmərəliliyini təmin olunması istiqamətində araşdırmaların aparılması, turizmin inkişafı ilə bağlı əsaslandırılmış təklif və tövsiyələrin hazırlanması olduqca mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının təmin edilməsi baxımından milli turizm potensialının səfərbər olunması, müvafiq resurs ehtiyatlarının təsərrüfat dövriyyəsinə daha geniş cəlbinin stimullaşdırılması, səmərəli istifadəsinin təmin edilməsi istiqamətləri və vəzifələrinin müəyyənləşdirilməsidir.

Bu məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı tədqiqat vəzifələri qarşıya qoyulmuş və ardıcıl olaraq yerinə yetirilmişdir:

-turizm potensialının iqtisadi mahiyyətinin nəzəri-metodoloji əsaslarının araşdırılması və qiymətləndirilməsi;

-davamlı və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi baxımından turizmin inkişaf istiqamətləri və problemlərinin identifikasiyası;

-Azərbaycan iqtisadiyyatında o cümlədən, qeyri-neft sektorunun inkişafında turizmin rolunun qiymətləndirilməsi;

-Azərbaycanda turizm infrastrukturunun formalaşması xüsusiyyətləri və problemlərinin tədqiqi;

-turizm potensialından istifadənin səmərəliliyinin təmin edilməsi baxımından investisiya qoyuluşlarının cəlbinin stimullaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi;

-milli turizm sənayesinin rəqabətliliyinin yüksəldilməsi istiqamətləri və vəzifələrinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyektini Azərbaycanın turizm potensialı və milli iqtisadiyyatın turizm sektoru təşkil edir. Tədqiqatın predmetini isə milli iqtisadiyyatın davamlı inkişafına turizmin təsirinin artırılması vəzifələri və müvafiq resurs potensialından səmərəli istifadənin şərtləri müəyyən edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Yerli və xarici ölkə alimlərinin fundamental tədqiqatlarının nəticələri, iqtisadi nəzəriyyə, dialektikanın prinsipləri, anlayışları, kateqoriyaları, qanunları və onların iqtisadi tədqiqatlarda tətbiqi xüsusiyyətləri, yeni tələbata uyğun xidmətlərin göstərilməsi ilə əlaqədar 1999-cu ildə qəbul edilmiş "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu, turizmin inkişaf etdirilməsinə dair dövlət proqramları və digər normativ hüquqi sənədlər, ölkə başçısının müvafiq fərmanları təşkil edir. Tədqiqat zamanı sistemli yanaşma, müqayisəli təhlil, induksiya, deduksiya, qrafiki, riyazi modelləşdirmə və mühakimə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin, DünyaTurizm Təşkilatının, Ümumdünya Ticarət Təşkilatının və digər müvafiq

elmi-praktiki təşkilatların, o cümlədən tədqiqat institutları, turiz şirkətlərinin statistik və analitik şərhləri təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Araşdırmanın əsas elmi yeniliyi Azərbaycanın turizm sektorunda resurs-ərazi potensialının və onun istifadə səviyyəsinin qiymətləndirilməsi, bu sahədə mövcud olan problemlərin həlli istiqamətində konkret təklif və tövsiyələr irəli sürməkdən ibarətdir. Tədqiqat işinin elmi yeniliklərinə aşağıdakıları aid etmək olar:

-turizm sektorunun resurs potensialının iqtisadi mahiyyəti dəqiqləşdirilmiş, ölkə iqtisadiyatının inkişafında təsir istiqamətləri müəyyən edilmişdir;

-ərazinin turizm potensialındann istifadə səviyyəsinin kəmiyyət və keyfiyyəti qiymətləndirilməsi aparılmışdır;

-ölkə üzrə turizm sferasının inkişafı məqsədi ilə potensialdan istifadənin səviyyəsinə təsir edən amillər müəyyən edilmişdir;

-iqtisadi sahə olaraq turizm sferasında potensialından istifadənin hərəkətə gətrilməsi üçün maneələr və onların aradan qaldırma yolları müəyyənləşdirilmişdir;

-turizmin iqtisadi sahə olaraq inkişafı məqsədi ilə mövcud potensialdan istifadənin dövlət tərəfindən stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi istiqamətləri işlənilərək tövsiyyələr irəli sürülmüşdür;

-turizm sektorunda ixrac yönümlü rəqabətə davamlı turizm məhsulunun formalaşdırılması istiqamətləri müəyyənləşdirilmişdir;

-turizmdə resurs potensialının məqsədyönlü şəkildə dövriyyəyə cəlb edilməsi üçün səmərəli investitsiya siyasətinin istiqmətləri təklif edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycan Respublikasının turizm potensialından istifadənin səmərəliləşdirilməsi istiqamətində irəli sürülmüş təklif və tövsiyələr turizmin inkişafına dair müvafiq normativ-hüquqi sənədlərin, proqram və layihələrin hazırlanmasında istifadə edilə bilər. Həmçinin tədqiqat işinin nəticələri elmi-tədqiqat işlərinin aparılmasında, ali məktəblərdə uyğun ixtisas üzrə tədris materiallarının hazırlanmasında və “Turizm iqtisadiyyatı”, “Turizmin əsasları”, “Turizmin planlaşdırılması və proqnozlaşdırılması” fənlərinin tədrisində istifadə oluna bilər.

**Tədqiqat işinin nəticələrinin tətbiqi və aprobasiyası.** Tədqiqatın nəticələri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq yerli və xarici elmi jurnallarda dərc edilmiş və dissertasiyanın əsas müddəaları barədə beynəlxalq elmi-praktiki konfranslarda məruzələr edilmişdir. Hazırda yerli elmi nəşrlərdə 10, xarici elmi nəşrlərdə isə 4 olmaqla, ümumilikdə 14 elmi məqalə müəllif tərəfindən çap edilmişdir.

Tədqiqat zamanı əldə edilmiş nəticələr, hazırlanmış təklif və tövsiyələr məruzə şəklində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinə təqdim olunmuş, nəticələrin tətbiqi haqqında 21.04.2016-cı il tarixli №1182/05 saylı arayış alınmışdır.

**İşin strukturu və həcmi**. Dissertasiya işi giriş, üç fəsil, nəticə, təklif və ədəbiyyat siyahı olmaqla 167 səhifədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri-metodoloji əsasları, informasiya bazası göstərilir, işin elmi yenilikləri, təcrübi əhəmiyyəti, aprobasiyası və tətbiqi şərh edilir.

Dissertasiyanın "**Turizm potensialının öyrənilməsinin nəzəri-metodoloji əsasları"** adlı birinci fəslində turizm sektorunun iqtisadi sistemin tərkibi, dünya iqtisadiyyatının dinamik inkişaf edən yüksək gəlirli sahələrindən biri kimi nəzəri əsasları öyrənilmiş, klassik iqtisadçıların nəzəriyyə və baxışları, müasir dövrün dünya, ölkə iqtisadçı alimlərin fikir və mülahizələri öyrənilib ümumiləşdirilməklə, elmi və elmi-təcrübəvi əhəmiyyəti olan bir sıra nəticələr çıxarılmış, tədqiq edilən məsələlərə dair müəllifin mövqeyi açıqlanmışdır. Bu fəsil eləcə də, turizm potensialının qiymətləndirilməsinin metodoloji əsasları və davamlı iqtisadi inkişafda turizmin rolunun təhlilinə həsr olunmuşdur.

İqtisadiyyatın bir sahəsi olaraq, turizm istənilən ölkənin iqtisadi sisteminin quruluşunu əks etdirir və beş iqtisadi funksiyasının həyata keçirilməsi vasitəsilə ona təsir göstərir: istehsal, əhalinin məşğulluğuna yardım, regional gəlirin yaradılması, regionun investisiya cəlbediciliyinin və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi. Qeyd olunan beş iqtisadi funksiya vasitəsi ilə ölkədə turizmin inkişaf səviyyəsinin müəyyən edilməsi regionlarda turizmin inkişaf xüsusiyyətlərindən asılıdır. Məhz regional səviyyədə turizmin inkişaf strategiyasının müəyyən olunması üçün əsas şərtlərdən biri mövcud turizm potensialının və onun effektiv istifadə yollarının üzə çıxarılmasından asılıdır. Bu problemlərin həlli yollarının daha dəqiq müəyyənləşdirilməsi məqsədilə, ilk növbədə, tədqiqatda istifadə olunan "region", "turizm və rekreasiya zonaları", "turizm", "turizm potensialı" məfhumlarının müqayisəli təhlili verilmişdir.

Tədqiqat işində turizm fəaliyyətinə effektiv təsir imkanlarından danışılarkən ölkənin siyasi, iqtisadi, ekoloji və sosial-mədəni mühiti araşdırılmışdır. Eyni zamanda turizm bazarında tələbin dəyişilməsinə təsir göstərən ümumi iqtisadi, sosial-demaqrafik, ictimai-psixoloji və fərdi-davranış amilləri verilmişdir. Əksər tədqiqatçıların fikirlərinə əsaslanaraq turizm daxili və xarici amillərin təsiri altında qarşılıqlı şəkildə fəaliyyət göstərən elementlərdən ibarət regionun iqtisadi və sosial sferasının tərkib hissəsi kimi göstərilmişdir. Sosial-iqtisadi sistem, turizm sistemi xarici və daxili amillərin təsiri altında fəaliyyət göstərən böyük açıq sistem şəklində əks olunmuşdur. Turizmi böyük açıq sistem kimi təhlil edərkən ona xas olan daha bir xüsusiyyəti onun inteqrasiyaya meylli olmasıdır. Bu da turizm sistemini iri açıq sistem kimi deyil, həm də inteqrasiya olunmuş sistem kimi dəyərləndirilməsinə imkan verir.

Ölkənin turizm potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsi üçün meyarları aşağıdakı kimi fərqləndirmək olar:

- Turizm xidmət sahələrinin genişləndirilməsi görə səmərəlilik;
- Turizm sektorunda xərclərin azaldılması hesabına əlavə gəlirin əldə edilməsi;
- Yeni texnalogiyaların tətbiqi;
- Xidmət və satış üzrə risklərin azaldılması və sair.

Ərazinin turizm potensialının bir neçə komponenti mövcuddur: "Təbii turizm resusları", "Antropogen turizm resusları", "Turizmin maddi-texniki bazası" və "Marketinq siyasəti". İqtisadi ədəbiyyatlarda turizm potensialı məfhumunun izahında iki əsas yanaşma mövcuddur: resurs və sistem. Resurs yanaşma baxımından qiymətləndirilmənin dörd növü təklif olunur: təbii, dəyər, ekspert və statistik qiymətləndirilməsi. Resurs-ərazi potensialının istifadəsinin effektivliyi resurs-ərazi potensialının istifadəsinin faktiki və mümkün ola biləcək səviyyələrin nisbətini əks etdirən meyar vasitəsilə müəyyənləşdirilə bilər. Resurs-ərazi potensialının istifadəsinin effektivliyi indikatoru qismində meyar qəbul olunub və onun hesablanmasının riyazi modeli təklif edilib:

$$E.İ._i^{rtp} = \frac{R.T.A.}{R.T.R.P.} * 100 \qquad (1)$$

Burada $E.İ._i^{rtp}$- regionun turizm sferasında resurs turizm potensialından istifadə əmsalını göstərir, %-lə ifadə olunur;

R.T.A.- regionda turistlərin faktiki sayının və onların qalma müddətinə bərabər qəbul edilən daxili və gəlmə turist axınının kəmiyyətidir, tur-günlərin miqdarı ilə ölçülür;

R.T.R.P.- regonun sərəncamında olan turizm resurs potensialıdır.

Bərabərlikdən göründüyü kimi, regionun turizm sektorunda resurs turizm potensialından istifadə əmsalı daxili və gəlmə turist axınının kəmiyyəti ilə düz, sərəncamında olan turizm resurs potensialı ilə isə tərs mütənasibdir.

İqtisadi səmərəliliyin təmin olunması üçün istifadə olunan üsullardan biridə iqtisadi riyazi üsullardır. Bu üsulun istifadəsinə əsaslanaraq həyata keçrilən qiymətləndirmə xərclərin minimallaşdırılması və gəlirlərin maksimallaşdırılması prinsiplərinə əsaslanır. Bu üsula riayət etməklə hər bir region maksimal səviyyəni təmin etməyə cəhd edir. Bununla yanaşı, proqnoz göstəriciləri doğruluq və onlara nail olunması prinsiplərə riayət etməklə təsdiqlənməlidir.

Turizm potensialından səmərəli istifadə meyyarlarından biri də davamlı inkişafın təmin olunmasında turizm sektoru qarşısında duran vəzifələrin düzgün müəyyənləşdirilməsidir. Ölkəmizdə davamlı iqtisadi inkişafın təmin olunmasında 2008-2015-ci illər üçün qəbul olunmuş yoxsulluğun azaldılması və davamlı inkişafın təmin olunması Dövlət proqramı çərçivəsində turizm sektoru qarşısında aşağıdakı vəzifələr müəyyənləşdirilib:

1. Turizm sektorunun inkişaf etdirilməsi məqsədi ilə 2008-2016-cı illərdə turizm sektorunun inkişafına dair Dövlət Proqramının və bu sektora dair standartların hazırlanması;

2. Regionlarda (rekreasiya və turizm zonalarında) turizm fəaliyyətinin stimullaşdırılması, turizmdə informasiya-təbliğat işinin gücləndirilməsi məqsədilə mövcud informasiya mərkəzlərinin işinin təkmilləşdirilməsi;

3. Dövlət İnvestisiya Proqramı vasitəsilə turizm infrastrukturunun inkişafı (yol, rabitə, elektrik enerjisi, qaz və sair);

4. Milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlər nəzərə alınmaqla alternativ turizm növlərinin inkişaf etdirilməsi (ekoturizm, kənd turizmi və sair) və müvafiq turizm marşrutlarının yaradılması.

Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası istiqamətində ölkəmizin davamlı inkişafında turizmin rolunun təmin olunması üçün konsepsiya çərçivəsində turizm infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq standartlara cavab verən turizm xidmət sahələrinin dairəsinin genişləndirilməsi, bu sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi və ÜDM-də xüsusi çəkisinin artırılması istiqamətində tədbirlər nəzərdə tutulur. Turizmin inkişaf etdirilməsi məqsədi ilə bu sahəyə dair qanunvericilik və standartlar təkmilləşdiriləcək, Xəzər dənizinin turizm potensialından tam şəkildə istifadə edilməsi üçün zəruri tədbirlər görüləcək, bölgələrdə turizm fəaliyyəti stimullaşdırılacaq, informasiya təbliğat işi gücləndiriləcək, milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlər nəzərə alınmaqla turizmin müxtəlif növləri müvafiq turizm marşrutları yaradılmaqla təşviq ediləcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2003-cü il tarixli 1152 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram qəbul olunmuşdur. Təbii ehtiyatlardan səmərəli istifadə etməklə mövcud iqtisadi potensialın, ekoloji sistemin qorunması yolu ilə indiki və gələcək nəsillərin ehtiyaclarının təmin olunması bu proqramın məqsədini ifadə edirdi. Bu konsepsiya milli turizm proqramında davamlı inkişaf prinsiplərini hər bir zona üçün ətraf mühütə maksimal yol veriləcək turist təzyiqinin müəyyənləşdirilməsini və onun yerinə yetrilməsini, ekoloji turizmin, o cümlədən turizmin digər yeni formalarının inkişaf etdirilməsinə nəzarət edilməsini nəzərdə tutur .

Turizmin davamlı inkişafının əsasını turizm sistemi elementlərinin geniş təkrar istehsalı təşkil edir. Təkrar istehsal prosesləri bütün həyat dövrəsi (tsikli) ərzində zamanda və məkanda dayanmadan fasiləsiz baş verir, onlar turistlərin maraqlarını dəstəkləyir və inkişaf etdirir. Turizm müəssisəsinin həyat dövrü (tsikli) və təkrar istehsal prosesləri təkcə bir-biri ilə deyil, həm də regional infrastrukturunun inkişafı ilə uzlaşmalıdır ki, bu da regional infrastrukturun yaradılmasına, inkişaf etdirilməsinə və əlavə xərclərin sərf edilməsindən qurtulmağa imkan verəcəkdir. Turizm sisteminə daxil olan elementlərin həyat

tsikllərini zaman üzrə optimallaşdırmaq lazımdır ki, bu da, yekun nəticədə, bütün turizm sisteminin həyat tsiklinin uzanmasına səbəb olur. Turizmdə təkrar istehsal proseslərinə əsas fondlar, regional və turizm infrastrukturu kimi elementlər deyil, həm də cəmiyyət, insan, təbiət və cəlbedicilik kimi elementlər də daxil edilib Təkrar istehsalın əsas amilləri turistlərin tələbatlarının vaxtlı-vaxtında verilmiş proqnozu, elmi-texniki tərəqqinin nailiyyətlərinin istifadəsi, turizm müəssisələrinin fəaliyyətinin diversifikasiyası və turizm tələbatının xüsusiyyətlərini əks etdirən daha çox amillər olmalıdır. Regionda turizmin davamlı inkişaf konsepsiyasının həyata keçirilməsi iri açıq inteqrasiya olunmuş sistem kimi turizmin xüsusiyyətlərini nəzərə alan əsas və başlıca prinsiplərə söykənməlidir. Onun inkişafı üçün bir sıra amillərin olması zəruridir ki, onlardan biri də turizm sistemi elementlərinin fasiləsiz və geniş təkrar istehsalıdır. Turizmin davamlı inkişafını üç amilin kompleksi qismində dəyərləndirirlər. Bunlara ekoloji dayanıqlıq, turizmin iqtisadi davamlılığı, turizmin sosial-mədəni davamlılığı amilləri aid edilir.

Zaman üzrə turizm sistemində məqsədlərin seçilməsi prosesində hər bir zamana görə gəlirlilik əmsalı *($G.Ə.^t$)* uyğun olaraq, faktiki olaraq əldə olunmuş gəlirin ($G_i^t$) həmin t dövrü ərzində maksimum mümkün ola biləcək gəlirə nisbəti kimi götürülür ( $G_{max.}^t$):

$$G.Ə.^t = \frac{G_i^t}{G_{max.}^t} \quad (2)$$

Zənnimizcə, effektivliyin ən mühüm və əhəmiyyətli göstəricilərindən biri resursun ödəmə qabiliyyətlilik göstəricisidir ki, onu aşağıdakı düstur üzrə müəyyənləşdirmək olar:

$$Ö \cdot g_i^t = \frac{G_i^t}{P*P_i^t} \quad (3)$$

Burada: $Ö.g_i^t$- *i* resursun *t* zamanında ödəmə əmsalıdır; $G_i^t$- *t* zaman dövrü ərzində əldə olunmuş faktiki gəlir, manatla; $P*P_i^t$- *t* zamanın *i* məqamında resursların sərfiyyatı, manatla.

Bu zaman, aşağıdakı şərtə riayət olunmalıdır:

$$Ö.g_i^{t-1} < Ö.g_i^t < Ö.g_i^{t+1} \quad (4)$$

Burada: $Ö.g_i^{t-1}$- *t* əvvəlki zaman dövründə *i* resursunun ödəmə əmsalı;

$Ö.g_i^{t+1}$- təhlildən sonrakı *t+1* zaman dövrü ərzində *i* resursunun ödəmə əmsalı;

Belə olan halda, turizm fəaliyyətində istifadə olunan və turizmin dayanıqlı inkişafına yönəldilən bütün resurslarının ödənilmə dərəcəsi aşağıdakı düstur əsasında təyin ediləcək:

$$\sum_{i=1}^{n} Ö.g_i^t = \sum_{i=0}^{n} \frac{G_i^t}{P*P_i^t} \quad (5)$$

Burada: *i*– resurs növü ($i$=1, 2, 3 ....$n$).

Göründüyü kimi, təklif olunmuş modellər zamanın real miqyasında sistemin davamlılığını xarakterizə edir, eləcə də müəyyən olunmuş hədəflərdən yayınma səbəblərini vaxtlı-vaxtında və daha dərindən təhlil etməyə, nöqsanların aradan qaldırılması tədbirlərinin işlənilib hazırlanmasına imkan yaradır.

Beləliklə, turizm sisteminin davamlılığını təsvir edən modellər və göstəricilərin məcmusu konkret regionda sistemin fəaliyyətinin və istifadə olunan resursların spesifik xüsusiyyətlərini əks etdirən digər fərdi göstəricilərlə tamamlana və təkmilləşdirilə bilər. Eyni zamnda turizm sektorunda davamlı inkişafın təmin olunması turizm potensialının istifadəsində məqsədyönlülüyün, səmərəliliyin və fasiləsizliyin göstəricisi ola bilər.

Dissertasiya işinin ikinci fəsili "**Azərbaycanda turizm potensialının müasir vəziyyətinin təhlili**" adlanır. Burada funksional-məqsədli turizm növləri üzrə potensialın Azərbaycanın turizm sektorunua cəlb etmə istiqamətləri müəyyənləşdirilmiş və rəqabətqabiliyyətliliyi baxımından qiymətləndirmə məsələlərinə baxılmışdır, qeyri-neft sektorunun inkişafının təmin edilməsində turizm potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsi və turizm infrastrukturunun mövcud vəziyyətinin təhlilinə səy göstərilmişdir.

Zəngin təbii, mədəni və tarixi irsə malik olan ölkəmizin turizm ehtiyatlarından səmərəli istifadə etməsi, eyni zamada mövcud turizm və ona yardımçı olan infrastrukturun genişləndirməsi ölkədə daxili və xarici turist axınını genişləndirir. Artan turist axını isə öz növbəsində ölkənin iqtisadi inkişafına düz mütanasib təsir göstərir. Belə ki,  2005-ci ildə ölkə iqtisadiyyatında turizmdə ümumi əlavə dəyərin həcmi 146,6 milyon manat olduğu halda, 2015-ci ildə bu rəqəm 2362,2 milyon manata yüksəlib. Son on ilin müqayisəsində yerləşdirmə yerlərinin sayı 2 dəfə artıb. 2006-ci ildə turizm müəssisələrinin sayı 96, mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 285 olduğu halda, 2015-ci ildə müvafiq göstəricilər 243 və 536 olmuşdur. Son 10 ildə turizm məqsədi ilə ölkəyə gələn xarici vədəndaşların sayı 3 dəfəyə yaxın artmışdır. Əgər 2005-ci ildə gələn turistlərin sayı 692,7 min nəfər olmuşdursa, 2014-cü ildə bu göstərici 2159,7 min nəfər, 2015-ci ildə isə 1921,9 min nəfərədək artmışdır (Şək.1).



Şək.1 Turizm məqsədi ilə ölkəyə gələn xarici vətəndaşların sayı.

Əsrarəngiz tarixi memarlıq abidələri, təbii ehtiyatlar, o cümlədən dünyada yeganə müalicəvi neft olan – naftalan nefti, özünəməxsus mədəniyyət, milli mətbəx və bir çox digər amillər ölkəmizdə turizmin bütün məqsədli: istirahət, əyləncə, işgüzar, müalicəvi, dini, qohumların, dostların ziyarəti və digər ( idman, tanışlıq, ovçuluq, ekzotik, çimərlik və hətta qastronomik) növlərinin inkişafı üçün şərait yaradır. Son illərin statistika məlumatları təsdiq edir ki, bu turizm növlərindən istirahət, əyləncə, işgüzar və qohumları ziyarət turizm növləri xüsusi çəkiyə malikdir.

Müalicəvi turizmin ölkənin iqtisadi inkişafında turizm növləri daxilində xüsusi imkanlara malikdir və bu növün gələcək turizm sferasının prioritet sahələrindən biri saymaq olar.

Bu xidmətlərin rentabelliyini aşkar etmək üçün Azərbaycanda pullu xidmətlər məcmuəsində əhaliyə göstərilən pullu xidmətlərin strukturundakı göstəriciləri məlumat bazası kimi istifadə edirik. (cədvəl 1). Cədvəldəki məlumatlardan istifadə edərək mövcud statistik məlumatları "E-views" tətbiqi proqram paketində emal etsək xətti loqarifmik reqresiya tənliyini almış olacağıq.

Cədvəl 1

2009-2015-ci illərin müalicəvi turizmin dəyişmə meyli.

| İllər | Gəlmə turizmində müalicə turizminin payı- MMG (min nəfərlə) | Sanatoriya-kurort müəssisələrində göstərilən pullu xidmətlər-SKMGPX (min manatla) |
|---|---|---|
| 2009 | 11,1 | 49496,6 |
| 2010 | 14,1 | 54124,0 |
| 2011 | 33,3 | 63988,5 |
| 2012 | 43 | 72792,5 |
| 2013 | 46,2 | 81891,7 |
| 2014 | 46,3 | 86302,2 |
| 2015 | 36,5 | 70035,1 |

LOG(SKMGPX) = 9.99701642199 + 0.333559342982*LOG(MMG) (6)

Loqarifmik reqresiyatənliyi əsasında deyə bilərik ki, 1% müalicəvi turizm məqsədi ilə gələn turistlərin sayının artımı sanatoriya-kurort müəssisələrində göstərilən pullu xidmətlərin həcmini 0,33% artıracaqdır. Və ya bunu belə vurğulamaq olar ki, müalicəvi turizmdə hər min turistin artımı sanatoriya-kurort müəssisələrində göstərilən pullu xidmətlərin həcmində 887,98 min manatın artımına səbəb olacaq.

Funksional məqsədli turizm növlərinin ölkəmizdə inkişafını təmin edəcək şərtlərdən biridə rəqabət mühütünün mövcud vəziyyətidir. Dünya İqtisadi Forumunun 2015-ci turizm və səyahətlər üzrə rəqabətlilik hesabatına baxsaq, ölkəmiz turizm sektoru üzrə dünya bazarında 7 ballıq qiymətləndirmə meyarı üzrə 141 ölkə arasında, 3,48 bal göstəricisi ilə 84-cü mövqedə qərarlaşmışdır. Qeyd etmək lazımdır ki, bu göstərici 4 əsas amil üzərində formalaşır. Bunlar ətraf mühitin mövcud durumu, turizm və səyahət fəaliyyətinin təmin edilməsi üçün siyasi şəraitin əlverişliliyi, infrastruktur və təbii-mədəni resurs göstəriciləri aid

edilir. Ölkəmizin Avropa və Qafqaz ölkələri arasında rəqabət üstünlüyünü müəyyən edən müqayisəli mövqeyi aşağıdakı şəbəkə diaqramında öz əksini tapmışdır (şək.2). Şəbəkə diaqramından göründüyü kimi, Azərbaycan Avropa və Qafqaz ölkələri arasında rəqabət üstünlüyünü müəyyən edən: mədəni resurslar, turizmdə xidmət, avtomobil, liman, hava nəqliyyat infrastrukturuları və beynəlxalq aləmə açıqlıq amilləri çıxmaq şərti ilə digər göstəricilərdən heç də geridə qalmır. Bu göstəricilərin demək olar ki, 50 faizi Avropa və Qafqaz ölkələrin rəqabətə davamlılıq göstəriciləri ilə eynilik təşkil edir. Bu isə ölkə turizminin mövcud potensialının rəqabətə davamlılığını, inkişafa təminliyini və ölkə iqtisadiyyatında prioritetliyini əks etdirir.




Şək.2 Azərbaycanın Avropa və Qfqaz regonları ilə rəqabət üstünlüyünü müqayisəli təsviri.

Davamlı inkişafın təmin olunmasında Azərbaycan hökümətinin həyata keçirdiyi Regionların sosial iqtisadi inkişafı (2004-2008) və (2009-2013-cü illər) Dövlət proqramları çərçivəsində sosial-iqtisadi siyasət, o cümlədən bu siyasətdən irəli gələn qeyri-neft sektorunun diversifikasiyası həlledici rol oynamışdır. Bütün bu tədbirlər nəticəsində Azərbaycan son on ildə öz karbohidrogen ehtiyyatlarından məqsədli şəkildə istifadə edərək iqtisadiyyatını uğurla diversifikasiya edən və onun neftdən asılılığını minimuma endirən bir ölkəyə çevrilmişdir. Aparılan bu işlər iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olmuşdur

Bunun nəticəsində ölkədə tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında  davamlı artım tendensiyası özünü göstərir.

Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi məlumatına görə turizm sektoru fəaliyyət istiqaməti kimi səyahətçilərin yerləşdirilməsi, iaşə sferası ilə bağlı fəaliyyət, dəmiryolu, quru yol, su və hava nəqliyyatı ilə sərnişin daşınmaları, nəqliyyat vasitələrinin icarəsi, səyahət bürolarının və digər bronlaşdırma xidmətləri, mədəniyyət, idman və əyləncə sahələrində fəaliyyət istiqamətlərinin məcmusu kimi nəzərdə tutulur. Bu göstəricilər əsasında ÜDM-in yaradılmasında turizm sahəsi üzrə xarakterik fəaliyyət növlərinin son on ildə göstəriciləri aşağıdakı cədvəldə verilmişdir (cəd. 2)

Turizmdə yaradılan ÜDM-in qeyri-neft sektorunun ÜDM-ində təsirini müəyyən etmək üçün aşağıdakı reqresiya tənliyinindən istifadə etmək mümkündür:

$$QNS = C(1) + C(2)*TURIZM + u$$

Burada QNS - qeyri-neft sektorunun ÜDM-i; TURİZM - Ümumi turizm fəaliyyəti üzrə ÜDM istehsalı göstəricilərini, u-təsadüfi kənarlaşmaları ifadə edir.

Cədvəl 2

Qeyri neft sektorunda turizmin fəaliyyət növlərinin xüsusi çəksi

| Göstəricilər | İ L L Ə R | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| 1.Qeyri-neft sektoru (mln.manat) | 6055,1 | 23196,1 | 26864,4 | 30525,9 | 33195,9 | 34500,9 |
| 2.Ümumi turizm fəaliyyəti üzrə ÜDM istehsalı (mln.manat) | 146,6 | 1300,0 | 1549,6 | 1828,4 | 2106,6 | 2362,2 |
| 3.Turizmin qeyri-neft sektorunda xüsusi çəkisi (%-lə) | 2,4 | 5,6 | 5,8 | 6,0 | 6,3 | 6,9 |

Parametrlərin qiymətləndirilməsində və ekonometrik modelin adekvatlığının yoxlanılmasında (testlər) ən kiçik kvadratlar üsulundan istifadəsi ilə hesablamaların aparılması kifayət qədər vaxt tələb etdiyindən parametrlər “Eviews” tətbiqi proqram paketi vasitəsi ilə realizasiya edilmiş və bunun nəticəsində qeyri-neft sektorunun turizmdən xətti aslılıq modeli aşağıdakı kimi öz əksini tapmışdır:

$$QNS = 6230.94542252 + 13.2336114677*TURİZM \quad (7)$$

7-ci bərabərlikdən görünür ki, tədqiq edilən dövr ərzində qeyri neft sektorunda turizm üzrə ÜDM istehsalının artan bir milyon manatına uyğun olaraq qeyri neft sektoru 13,234 milyon manat artır.

Tədqiqat işində həmçinin müəyyən edilmişdir ki, turizm sektorunda infrastrukturun təkminləşdirilməsi məqsədyönlü investisiya siyasəti vasitəsi ilə həyata keçrilir. Son illər ölkəmizdə regional inkişaf və digər dövlət proqramlarının tətbiqi çərçivəsində qazanılan bir çox uğurlar arasında müvəffəqiyyətlə həyata keçirilən investisiya siyasəti əsas yerlərdən birini tutur. Turizm sektoruna investisiyaların cəlb edilərək səmərəli yerləşdirilməsi sahə iqtisadiyyatının

rəqabət qabiliyyətini artırır, dayanaqlı iqtisadi inkişafı təmin edir. Turizm sektorunda investitsiyaların əsas istiqamətləri əsas fondların təzələnməsi, turizm infrastrukturunun yeni- lənməsi və turizmdə işləyənlərin iqtisadi cəhətdən təmin olunmasına yönəldilən vəsaitlərin artırılması məqsədini güdür.

Cədvəl 3

İqtisadiyyatın turizm sahəsi üzrə əsas kapitala yönəldilmiş daxili və xarici investisiyalar (min manat)

| İllər | Daxili investisiyalar | | Xarici investisiyalar | | Ümumi investisiya |
|---|---|---|---|---|---|
| | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | İstirahət,əyləncə və incəsənət sahəsində fəaliy-yət | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | İstirahət,əyləncə və incəsənət sahəsində fəaliyyət | |
| 2005 | 2708,8 | 24004,2 | - | 2308,6 | 29021,6 |
| 2006 | 11089,5 | 53358,9 | 2483,3 | 10683,8 | 77615,5 |
| 2007 | 16201,0 | 162703,6 | - | 793,3 | 179697,9 |
| 2008 | 20477,3 | 309649,6 | - | - | 330126,9 |
| 2009 | 86010,7 | 232346,7 | - | 10993,2 | 329350,6 |
| 2010 | 221045,0 | 326867,4 | - | 7997,3 | 555909,7 |
| 2011 | 303696,5 | 723627,8 | - | - | 1027324,0 |
| 2012 | 138208,2 | 691443,6 | 23,0 | - | 829674,8 |
| 2013 | 68536,5 | 619050,9 | - | - | 687587,4 |
| 2014 | 120518,5 | 1645059,3 | - | - | 1765578,0 |
| 2015 | 442922,7 | 365283,5 | - | - | 808206,2 |

Turizm sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyanın turizm fəaliyyəti nəticəsində əldə edilmiş ÜDM-a təsirini müəyyən etmək üçün aşağıdakı reqresiya tənliyinindən istifadə etmək mümkündür.

LOG(TFUUDM) = C(1) + C(2)*LOG(TIQ)+ u (8)

Burada **TFUUDM** – turizm fəaliyyəti nəticəsində əldə edilmiş ÜDM-in həcmini (min manat); **TIQ** – Turizm sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyanın faktiki qiymətlərlə (min manat) dəyərini ifadə edir. ÜDM istehsalı göstəricilərini, u-təsadüfi kənarlaşmaları ifadə edir.

Parametrlərin qiymətləndirilməsi və ekonometrik modelin adekvatlığının yoxlanılması "Eviews" tətbiqi proqram paketi vasitəsi ilə realizasiya edilmiş və nəticədə turizm fəaliyyəti nəticəsində əldə edilmiş ÜDM-in turizm sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyalardan loqarifmik aslılıq modeli aşağıdakı kimi öz əksini tapmışdır.

LOG(TFUUDM) = -3.49450807846 + 0.776897180279*LOG(TIQ) (9)

| **Dəyişən** | **Əmsal** | **St. Səhv** | **t-test** | **p-ehtimal** |
|---|---|---|---|---|
| C | -3,494508 | 1,146103 | -3,049036 | 0,0138 |
| LOG(TIQ) | 0,776897 | 0,088941 | 8,734998 | 0,0000 |

R-squared = 0,894490; Adjusted R-squared = 0,882767;
Durbin-Watson s. = 1,974834.

Göründüyü kimi model ilkin ekonometrik meyyarları ödəyir. Determenasiya əmsalına (R-squared = 0,8944) əsasən 2005-2015-ci illərdə real ifadədə verilmiş turizm fəaliyyəti nəticəsində əldə edilmiş ÜDM-in (**TFUUDM)** 89,44%-i turizm sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyalardan **(TİQ)** asılı olması ilə izah oluna bilir.

Yuxarıdakı ekonometrik modeldən göründüyü kimi turizm sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiya **(TİQ)** qoyuluşunun 1 faiz artması turizm fəaliyyəti nəticəsində əldə edilmiş ÜDM-in (**TFUUDM)** 0,78 faiz artmasını təmin edir.

Təqdim olunan tədqiqat işində turizm potensialından istifadənin digər fəaliyyət növləri ilə əlaqəsini ifadə edən dörd simulyativ modeldən istifadə edilmişdir. Bu təhlilin məlumat bazası kimi "Xərclər-buraxılış" cədvəlləri götürülmüşdür.

Birinci simulyativ model turizm sahəsində son məhsulun dəyişməsinin sahələrin məhsul buraxılışına təsirinin multiplikativ effektivliyi ifadə edir.

İkinci simulyativ model turizm sahəsində qiymət dəyişkənliyi ilə digər sahələrdə məhsulların qiymətlərinin səviyyəsinə təsiri simulyasiya modeli və ya dövlət tərəfindən qiymətləri tənzimlənən məhsulların qiymətlərinin dəyişməsi ilə turizm məhsullarının qiymətlərinin səviyyəsinə təsirinin simulyasiya modelidir.

Sahələr arası əmək balansı modeli əsasında turizm müəssisələrində iş yerlərinin açılması üzrə simulyasiyalar tədqiq olunan işin üçüncü simulyativ modelidir**.**

Dördüncü simulyasiya modeli turizm sektorunda son məhsul istehsal edilməsinin təmin edilməsi üçün tələb olunan kapitalın (əsas fondun) miqdarını müəyyənləşdirən sahələr arası kapital balansı və simulyasiyalar modelidir.

Dissertasiya işinin üçüncü fəsli "**Azərbaycanda turizm potensialindan səmərəli istifadənin təkmilləşdirilməsi yollari"** adlanır. Bu fəsildə Azərbaycanın turizm potensialının ölkə iqtisadiyyatının inkişafına təsir imkanları müəyyən edilmiş, turizm fəaliyyətində rəqabətə davamlılığın təmin edilməsi yolları göstərilmiş və turizm sektorunun inkişafında investitsiya qoyuluşunun mexanizmləri açıqlanmışdır.

Son illər müxtəlif səviyyələrdə turizmin inkişafı istiqamətində aparılan işlər və bu sənayeyə olan diqqət, beynəlxalq miqyaslı idman, mədəni – kütləvi tədbirlərin keçrilməsi ölkədə turizm infrastrukturunun əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olmuşdur. Bu istiqamətdə aparılan fəaliyyətin nəticəsi olaraq ölkədə yeni əyləncə mərkəzləri yaradılmış, yerləşdirmə müəssisələrinin sayı artmış, nəqliyyat infrastrukruru yaxşılaşdırılmış və yeni yol qovşaqları işə salınmışdır. Turizmin inkişafı istiqamətində aparılan çoxsaylı işlərin həyata keçrilməsinə baxmayaraq hələdə bəzi çatışmamazlıqlar özünü göstərməkdədir

və bunların aradan qaldırılmasında sahənin qarşısında bir sıra həlli tələb olunan vəzifələr durur:

- ölkədə mümkün və rahat turist mühitinin formalaşmasında turizm və rekreasiya kompleksinin inkişafı;
- istər daxili bazarlarda, istərsə də beynəlxalq bazarlarda rəqabətə dözüm gətirə bilən turizm məhsulunun inkişaf etdirilməsi;
- cəmiyyətin mənəvi və əxlaqi əsaslarının formalaşmasında turizmin rolunun gücləndirilməsi;
- gənclərlə iş yönümündə turizmin mədəni-idrak funksiyasının həyata keçirilməsi;
- turizm sənayesinin davamlı inkişafının təmin olunması üçün təhlükəsizliyin təmin edilməsi;
- regionda insanların yaşayış səviyyəsinin artırılması, iqtisadi və sosial mədəni inkişafın təmin olunması üçün turizmin inkişaf etdirilməsi.
- ÜDM-da turizmdən əldə olunmuş gəlirlərin və adambaşına düşən payın artırılması.

Azərbaycanda turizmin inkişafının prioritet istiqamətləri aşağıdakılardır:

1. Daxili və gəlmə turizmin inkişafı;
2. Ölkədə turizm xidmətlərinin uyğunlaşdıraraq beynəlxalq standartların tələblərinə cavab verən səviyyəyə gətirilməsi;
3. Turizm naviqasiyasını, istiqamətverici işarələri, regionlarda turizm resursları və proqramları haqqında informasiyanı özündə əks etdirən turizm informasiya alətlərinin yaradılması;
4. Azərbaycanın bütün regionlarında mövcud potensiala uyğun inkişaf etdirilməsi mümkün olan turizm məhsulunu təşviq etmək üçün səylərin əlaqələndirilməsi.

Qeyd olunmuş turizmin inkişaf prioritetləri müəyyən edildikdən sonra ölkəmizdə turizm strategiyasının işlənilib hazırlanması bir sıra prinsiplərə əsaslanmalıdır:

- turizmin inkişafına kompleks yanaşma;
- təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, incəsənət, elm, sənaye, xidmət sahələri daxil olmaqla milli iqtisadiyyatın və cəmiyyətin ictimai həyatının bütün sahələrində turizmin inkişafında inteqrasiya planı;
- turizmin inkişafında innovasiya xüsusiyyəti;
- turizm sektorunda sahibkarlıq təşəbbüsünün stimullaşdırılması və kiçik müəssisələrin sayında artımı təmin etmək üçün münbit şəraitin yaradılması;
-turizm proqramlarının təşkilində beynəlxalq əməkdaşlığın və mədəniyyətlərarası əlaqənin təmin edilməsi;
-istehlakçıların, biznes qurumlarının, qeyri-kommersiya təşkilatlarının, dövlət idarəetmə orqanlarının və yerli əhalinin turizmin inkişafında olan maraqlarının balanslaşdırılması;

-turizmin regionun sosial-iqtisadi inkişafına təsirini qiymətləndirərkən əhalinin həyat keyfiyyəti göstəricisinə diqqət yetirilməsi;

-turizmin inkişafında davamlılıq, ekoloji və sosial-mədəni risklərin qeydiyyatı və turizm resurslarından istifadənin tükənməz şəkildə həyata keçirilməsi.

Azərbaycanda turizm potensialının mövcud vəziyyəti və ondan istifadənin təhlilinin aparılması üçün istifadə edilən səmərəli yollardan biri SWOT analizi metodudur. Məhz bu metod turizm sektorunun mövcud vəziyyətinin təhlilində istifadə olunmuş universal alətdir və onun nəticələrindən səmərəli istifadə etsək regionlar üçün turizmin inkişafında optimal strategiyanı və Azərbaycanın beynəlxalq turist cəlbediciliyini müəyyənləşdirmək olar.

Tədqiqat işində Azərbaycanda turizm potensialınln səmərəli istifadə etməklə dünya turizm bazarında rəqabət üstünlüyünün təmin olunması üçün M.E.Porterin “Ümumi rəqabət strategiyası” konsepsiyasını əsaslanaraq üç ümumi strategiya – liderlik, diferensiallaşdırma və fokuslanmanı təklif edilir.

Xərclərdə liderlik strategiyanın ana xəttini məhsul və xidmətlərin keyfiyyətinə diqqətin kənarda qalmaması şərti ilə firma xərclərinin aşağı salınması rəqabət üstünlüyünün əsasını təşkil etməlidir.

Diferensiallaşdırma strategiyası öz mahiyyəti etibarı ilə bazara təklif edilən mal və xidmətləri fərqləndirərək bütün sənayedə bənzərsiz olaraq qəbul edilən fərqli bir məhsul və xidmətlərin yaradılmasıdır. Bu siyasətin tətbiqi bir sıra formalarda ola bilər: dizayn və marka adı, texnologiya, əmtəə və xidmətlərin özəllikləri, müştəri servisləri, mal və xidmətlərin istehlakçılara çatdırılma metodları və sair.

Fokuslanma strategiyası ölkəmizin regional turizm bazarında (Qafqaz bazarı) üstünlüyünü təmin edəcək turizm növlərinin inkişafı haqqında danışılmalıdır. Məsələn müalicəvi, çimərlik, ov, ekoturizm və qolf turizminin inkişafı ölkəmiz üçün turizmin fokuslanma strategiyasının hədəfləri ola bilər.

Artan turizm tələbatının ödənilməsi üçün turizm potensialından səmərəli istifadə yollarından biri də turizm sektoru üçün investisiya proseslərində birbaşa və dolayı metodların çevik şəkildə bir-birinə uzlaşdırılmasıdır. Büdcə mənbələrindən və dövlət investisiya şirkətlərinin ehtiyatlarından investisiya kreditlərini, layihə və proqramların iqtisadiyyatın dövlət sektoru çərçivəsində investisiyaların birbaşa maliyyələşdirilməsini, habelə investisiya məqsədləri üçün regionlara və yerli icra orqanlarına büdcə subsidiyalarını birbaşa iştirak metoduna aid etmək olar

İnvestisiyaların dövlət tənzimlənməsinin istifadə olunan dolayı metodlardan vergi stimulları, amortizasiya və diskont siyasəti, kommersiya banklarının maliyyə resurslarının icbari qaydada mərkəzi bankda ehtiyata qoyulması, kreditlər üzrə dövlət təminatlarını misal göstərmək olar.

Ölkəmiz üçün turizm sektorunda invetisiyanın səmərəliliyinin təmin olunmasının başqa bir yolu dünya təcrübəsində investitsiyalara təşviqi istiqamətində uğurla həyata keçirilən sığorta şirkətlərinin bu fəaliyyətə cəlb olunmasıdır. Məsələn ABŞ iqtisadiyyatına xüsusi (özəl) investisiyaların iri mənbəyi kimi həyat sığortası şirkətləri çıxış edir və əhəmiyyətinə görə bunlar kommersiya banklarından sonra ikinci yeri tutur. Milyonlarla sığorta polisi sahibləri həmin şirkətlərin mülkiyyətçisidirlər və onlar polislərə görə təkcə sığorta ödənişi almırlar, həm də ondan mənfəət götürürlər. Sığorta şirkətləri korporasiyalara, dövlətə, fərdi şəxslərə borc pul verir, habelə yüksək gəlirli qiymətli kağızları investisiya qoyurlar.

Başqa bir təcrübədə qeyri-bank kredit idarələri arasında xırda fərdi sahibkarların vəsaitlərini akkumulyasiya edən və yüksək faizlə, ən çox da uzun müddətə kreditlər verən borc-əmanət assosiasiyalarının yaradılmasını göstərmək olar. Bu timsalda ölkəmiz üçün təcrübə olaraq qanuni mexanizmlərin işlənilərək “Turizm asosiyasiyasının” investisiya istiqamətində fəaliyyətinin yaradılması təqdirəlayiq saymaq olardı.

Dissertasiya işinin sonunda əldə olunmuş nəticələr əsasında Azərbaycanın turizm potensialından səmərəli istifadə istiqamətlərini müəyyən edilərək turizm sektorunun iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilməsi üçün menecment və təşkilati yönümlü, iqtisadi səmərəliliyin artırılması yönümlü, marketinqin təşkili və təbliği yönümlü- üç istiqaməti özündə əks etdirən səmərəliləşdirici təkliflər verilmişdir.

**Dissertasiya işinin əsas müddəaları aşağıda dərc olunmuş elmi məqalələrdə öz əksini tapmışdır:**

1. “İqtisadiyyatda turizm multiplikatorunun effektivliyi”,“Turizm və rekreasiya: problemlər və perspektivlər” Üçüncü respublika elmi-praktiki konfransının materialları, Bakı, 2010, səh.119-124.
2. “Turizmin iqtisadi əhəmiyyəti”, “Azərbaycanda turizmin inkişafı və regional problemlər” Bakı, 2011, səh.269-274.
3. “Azərbaycanın davamlı iqtisadi inkişaf neft amili”,“Turizm və qonaqpərvərlik tədqiqatları”№-1(1)Bakı,2012,səh.38-40.
4. “İnnovasiyanın turizmdə rolu”, Azərbaycan Respublikasının Prezidenti yanında Elmi İnkişafı Fondu, “Gənc Alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası” çərçivəsində “Yeni çağırışlar:müasir şəraitdə elmi innovativ tədqiqat işlərinin təcrübi və tətbiqi əsasları”- Gənc alimlərin elmi konfransının materilları, Cild II, Bakı, 2012, səh.56-59.
5. Значение туристского сектора в экономике страны, Azərbaycan Universiteti, Müasir dünyada inteqrasiya və müqavimət prosesləri:Beynəlxalq elmi konfrans, Bakı, 2012, səh.205-209.
6. Социално-экономическое развитие регионов Азербайджанской Республики – итог многовекторности национальной экономики, Milli iqti-

sadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi: Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, 2012, səh.99-103

7. Перспективное социально-экономическое развитие туризма – это гарант национальный экономической модели в Азербайджанской Республике, «Туризм и рекреация: инновации и ГИС-технологии», Материалы V Международной научно-практической конференции Посвященной 80-летию Астраханский Государственный Университет, 2012, ст.35-40.

8. "Regional iqtisadi inkişafda turizm-rekreasiya potensialının qiymətləndirilməsi", "Turizm və qonaqpərvərlik tədqiqatları" №-2 Bakı, 2013, səh.52-55.

9. Проблемы развития туризма в Азербайджана, Донецкий Национальный Университет, Проблемы и перспективы развития сотрудничество между странами юго-восточной европы в рамках черноморского экономического сотрудничества и гуам, Сборник научных трудов, 2013, ст.219-223.

10. Туристский потенциал Азербайджана, Стопанска академия «Димитър А. Ценов»-Свищов, Международна научна конференция: Социалните науки и икономиката, том2, 2014, ст.274-281.

11. "Azərbaycanın turizm potensialını müəyyən edən amillərin təhlili", "Turizm və qonaqpərvərlik tədqiqatları" №-3 Bakı, 2015, səh.8-17.

12. Экономическая эффективность использования рекреационного и туристского потенциала, Стопанска академия «Д.А. Ценов»-Свищов, Международнаюбилейна научна-практическа конференция: Европейски практики и национални рефлексии в планирането, том 3, 2015, ст.399-406.

13. "Gəlmə turizminin ölkə iqtisadiyyatına təsirinin ekonometrik təhlili.", "Turizm və qonaqpərvərlik tədqiqatları", Beynəlxalq Jurnal, №-2 Bakı, 2016, səh.188-199.

14. "Azərbaycanda rəqabətə davamlı turizm sektorunun inkişaf istiqamətləri", Azərbaycan memearlıq və İnşaaat Universiteti "Kurortların, İstirahət zonalarının və turizm yerlərinin memarlığı və şəhərsalma inkişafı": Beynəlxalq elmi-praktik konfransın materialları, 27-28 Oktyabr, Bakı, 2016, səh.319-324



# РЕЗЮМЕ

## Мирзоев Анар Фаик оглы

## Направления повышения эффективности использования туристического потенциала в Азербайджане

Во вступительной части диссертации обоснуется актуальность темы, показываются уровень изученности проблемы, цели и задачи исследования, объект и предмет, теоретико-методологические основы, информационная база, комментируются научные новшества, практическая значимость, апробация и применение.

В первой главе диссертации, названной **«Теоретико-методологические основы изучения туристического потенциала»**, изучены теоретические основы как одна из динамично развивающихся высокоприбыльных отраслей состава экономической системы туристического сектора и мировой экономики, обобщая изучение теорий и взглядов классических экономистов, мнения и рассуждения современных учёных-экономистов мира и страны, сделан ряд выводов научной и научно-практической значимости, разъяснена позиция автора относительно исследуемых задач.

Во второй главе диссертации речь идёт об оценивании туристического потенциала страны с точки зрения различных видов туризма и конкурентоспособности, о путях повышения эффективности использования туристского потенциала развития ненефтяного сектора и анализа имеющегося туристического потенциала в Азербайджане. Эта глава под названием **«Анализ современного положения туристического потенциала в Азербайджане»** нашла свой отражение в работе диссертации.

Третья глава представлена под названием **«Пути усовершенствования эффективного использования туристическо-го потенциала в Азербайджане».** В этой главе посредством SWOT анализа исследованы возможности влияния туристического потенциала Азербайджана на развитие экономики страны и сделаны обобщённые выводы, пути обеспечения устойчивости конкурентоспособности в туристической деятельности и выявлены направления инвестиционных вложений.

В заключении диссертационной работы обобщены научные разработки, предложения и рекомендации, полученные автором в результате исследования.




## SUMMARY

**Anar Faig Mirzayev**

**Enhancing directions of use of Azerbaijan tourism potential efficiency**

The introduction part of the thesis deals with the relevance of the subject, the level to study the problem, objectives and functions of the research, its object and subject, the theoretical and methodological basis, data base are shown, the scientific achievements, practical importance, approbation and application are expalined.

In the first chapter of the thesis - “**The theoretical and methodological basis of the study of tourism potential**” are studiedthe composition of the tourism sector in the economic system and theoretical basis as one of the rapidly developing high-income areas in the world economy, the theory and standpoints of the classical economists, summarizing world and national economists’ points and assumptions in the modern period, a number of results of scientific and scientific-practical importance are deducted, the author’s points related to the researched issues are explained.

The second chapter of the thesis deals with the assessment of the tourism potential of the country, the ways to increase the efficiency of utilization of tourism potential ensuring the development of non-oil sector and analysis of the tourism potential of Azerbaijan in terms of different types of tourism and competitiveness. The chapter is called as "**Analysis of the current state of the tourism potential of Azerbaijan** " in the thesis.

The third chapter is **“The ways to improve effective use of tourism potential in Azerbaijan”**. In this chapter Azerbaijan's tourism potential to influence the development of the national economy has been analysed through SWOT analyses, summarized results have obtained, the ways to ensure the competitiveness in tourism activities and directions of investment have been determined.

In the conclusion of the thesis relevant recommendations and proposals have been made having summarized the methodological and practical results of the research work.



Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 087, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---------------------------------------------------------------------------------

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Мирзоев Анар Фаик оглы**

# НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ИСПОЛЬЗОВАНИЯ ТУРИСТИЧЕСКОГО ПОТЕНЦИАЛА В АЗЕРБАЙДЖАНЕ

**5312.01-«Отраслевая экономика»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по экономике

**ГЯНДЖА – 2016**